# Məhdudiyyətlərin yumşaldılması virusa yoluxma riskini azaltmır

***“May ayı ərzində COVID – 19 infeksiyasına yoluxma hallarında ölkə əhalisi arasında sabitləşmə və dinamik azalma tendensiyası müşahidə olunmuş və yoluxmalar ailə və qohumluq əlaqəsi olan insanlar arasında daha çox qeydə alınmışdır. Bu da onu deməyə əsas verir ki, ölkədə tətbiq olunan karantin rejimi öz səmərəsini verib və hazırkı vəziyyətdə ölkəmizin COVID –1 9 infeksiyasına görə epidemioloji durumunu sabit qiymətləndirmək olar”. Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktorunun müavini Vaqif Abdullayev bu fikirləri ölkədə epidemioloji vəziyyəti qiymətləndirərkən deyib.***



Qeyd edək ki, COVID – 19 pandemiyasının davam etdiyi bir ildən artıq müddətdə müxtəlif dünya ölkələrində karantin rejiminin yumşalmalarının insanlarda “təhlükəsiz şərait” təəssüratını yaratdığını müşahidə etmişik. Belə bir vəziyyətdə insanlarda yaranan arxayınlığın COVID – 19 - un yayılmasının qarşısını almaqda həlledici rolu olan profilaktika tədbirlərinə (sosial məsafə, maskadan düzgün istifadə, qapalı otaqların havasının dəyişdirilməsi, əl gigiyenası, respirator etiket qaydaları, kütləvi tədbirlərdə olmaqdan çəkinmə) əməl edilməməsinə səbəb olmaqla, yoluxmaların yenidən artmasına şərait yaratmasının şahidi olmuşuq. Lakin inanırıq ki, artıq uzun müddətli karantin rejimi dövründə vətəndaşlarımızın adət etdiyi fərdi qorunma vərdişləri belə bir arzuolunmaz nəticələrdən kənar olmağa imkan verəcək.

V. Abdullayev bildirib ki, tətbiq edilən qadağaların bəzilərinin aradan götürüldüyü, məhdudiyyətlərin yumşaldıldığı dövrdə insanlar daha da ehtiyatlı olmalı, özünü və digərlərini hələ ki, ətraf mühitdə dövr edən təhlükəli virusa yoluxma risklərindən qorumaq üçün bütün mümkün tədbirlərə, xüsusən yuxarıda qeyd etdiyimiz profilaktik qorunma tədbirlərinə əməl etməlidirlər. Unutmaq lazım deyil ki, COVID – 19 üzərində tam qələbə çalmaq üçün uzun müddət lazımdır və pandemiya dünya əhalisi üçün hələ də ciddi təhlükə yaratmaqda davam edir. Yalnız bir statistik məlumata diqqət yetirmək kifayət edər ki, dünya üzrə 2021- ci ilin beş ayında 2020 - ci ilə nisbətən koronavirus infeksiyasına yoluxan və bu xəstəlikdən ölüm hadisələri daha çox olub.

Epidemioloq bildirib ki, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yeni koronavirus pandemiyası ilə mübarizədə vaksinasiyanın roluna xüsusi önəm verilir. Ölkəmizdə qəbul olunmuş “Azərbaycan Respublikasında COVID – 19 xəstəliyi əleyhinə 2021– 2022 -ci illər üçün Vaksinasiya Strategiyası”na uyğun olaraq bu ilin yanvar ayının 18- dən peyvənd kampaniyasına başlanıb. Hazırda ölkəmizdə, ümumilikdə, iki milyondan artıq doza peyvənd istifadə edilib, 880 min nəfərdən çox insan 2-ci, yəni tam peyvəndi alıb. Hər şey vətəndaşların özlərini mövcud durumda necə aparmalarından asılıdır. Həm vaksin edilənlərin, həm sağalanların sayı nə qədər çox olsa, ölkə əhalisində o qədər tez kütləvi immunitet yaranacaq və Azərbaycan pandemiyadan xilas olacaq.

Onu da qeyd edək ki, Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatı çərçivəsində səhiyyə nazirlərinin videokonfrans formatında keçirilən görüşündə Səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra edən Teymur Musayev 2021- ci ilin pandemiya ilə mübarizə ili olduğunu qeyd edərək, Hərəkat çərçivəsində ictimai səhiyyə sahəsində qlobal səylərin birləşdirilməsinin əhəmiyyətini qeyd edib. O deyib: “Çoxtərəfli Hərəkatın dəstəyini təsdiqləyirik və bunun təməlində Birləşmiş Millətlər Təşkilatı dayanır və sözü gedən qurumun Baş katibinin pandemiya ilə mübarizə planlarına və təşəbbüslərinə tam dəstəyimizi bildiririk. Bu qlobal problemi effektiv və vaxtında həll etmək üçün milli, regional və beynəlxalq səviyyədə razılaşdırılmış tədbirlərin görülməsi vacibdir”.

İclasda qonaq qismində dəvət edilmiş Ümumdünya Səhiyyə Təşkilatının direktoru Dr. T.A. Gebreyesus çıxış edərək, pandemiya ilə mübarizədə iştirak edən tibb işçilərinə təşəkkür edib və COVID–19 ilə mübarizədə vaksinasiyanın əhəmiyyətini diqqətə çatdırıb. Konfransda, həmçinin Qlobal Səhiyyə Həmrəyliyi prinsipinə əsaslanan əməkdaşlıq bir daha vurğulanıb.

Hazırda virusoloqlar tədqiqatlarını davam etdirirlər. Onlar canlı olaraq virusa yoluxub xəstəliyi keçirənlərlə koronavirus peyvəndi olunan insanlarda virusa qarşı yaranan immuniteti – antitelləri müqayisə ediblər. Ümumi fikir belə olub ki, hər iki halda insanda antitel yaranır, bəs virusa qarşı hansı daha təsirlidir? Rusiyalı virusoloq Aleksandr Semyonov vaksin nəticəsində yaranan immunitetin xəstəlikdən sonra yaranandan daha güclü və təsirli olması qənaətinə gəlib. O bildirib ki, vaksin mutasiyaya uğramış bir neçə ştamma qarşı təsirli olur və koronavirusun bəzi növlərini əhatə edir. Xəstəlik isə həmin dövrdə aktiv olan ştammın antitelini formalaşdırır. Məsələn, ötən ilin iyun ayında xəstələnən insan bu il virusun başqa ştammına yoluxa bilər və hətta ağır keçirər. Vaksinlər isə virusu ümumilikdə öyrənib. Ona görə indiki halda peyvənd immuniteti müdafiə baxımından daha yaxşıdır. Həkim qeyd edib ki, vaksin olunanlar da, yoluxub sağalanlar da antitelləri olsa da, qapalı məkanlarda, insanların sıx toplaşdığı yerlərdə maska taxmalı və ara məsafəsinə riayət etməlidirlər. Çünki, pandemiya hələ bitməyib və onun yeni mutasiyaları yaranmaqdadır.

Qeyd edək ki, Hindistanın Qərbi Benqal əyalətində koronavirusun əvvəllər məlum olmayan yeni ştammı müəyyən edilib. Onun genomunda İngiltərə və Cənubi Afrikada aşkarlanmış SARS – CoV –2 versiyaları üçün xarakterik olan bir neçə əsas mutasiyalar mövcuddur. Qeyd edək ki, alimlər son yarım ildə eyni vaxt ərzində koronavirusun bir neçə yeni ştamlarını aşkarlayıblar ki, bu da artan yoluxma nəticəsində SARS – CoV–2 - nin bundan əvvəlki növlərini aradan çıxarmağa başlayıb. Onların sırasına Britaniya, Braziliya və Cənubi Amerika virusu adlanan növlər daxildir. Daha bir oxşar ştamm (B.1.617.1) ötən il noyabr ayının sonunda Hindistan ərazisində peyda olub. Kəlkütdədəki Bağırsaq Xəstəliklərinin Tədqiqatı İnstitutunun həkimləri bu yaxınlarda Hindistanın qərb regionlarında koronavirusun daha bir potensial təhlükəli növünü aşkarlayıblar. Qərbi Benqal vilayətindən götürülən nümunələrin təqribən 16 faizində koronavirusun bundan əvvəl məlum olmayan versiyaları aşkarlanıb. Bir sözlə, vətəndaşlar unutmamalıdırlar ki, pandemiya yenə də virusun yeni ştammları ilə bəşəriyyəti təhdid edir və təhlükə hələ sovuşmadığından hər yerdə qorunma tədbirlərinə əməl etmək lazımdır.

*Zərifə BƏŞİRQIZI, “Xalq qəzeti”*